# Bir səs gəlir Koroğlunun Qalasından, qalasından.

## Düşmənin ağ bayrağı

Mənim torpağımda sən nə gəzirsən?
Bu yurdun, yuvanın yiyəsi mənəm.
Gülləni sıxmağa sinə gəzirsən?
Vətənin qayası, daşıdı sinəm.

Səni yıxan qaya, büdrədən daş da
Qoluma güc verir, dizimə təpər.
Mənim adladığım hər addamaş da
Sənin qabağında çəpərdi, çəpər.

Mənim nəfəsimi duyub, bir baxın,
Ağaclar sevinir, dağlar sevinir.
Səsim qulağına dəyib, bir baxın,
Çıxıb yuvasından quşlar sevinir.

Gecənin bağrını yarır bir işıq,
Qolları açılmış yurdlar ulaşır.
Üçrəngli bayrağım göyə yaraşıq-
Üzü ona sarı qurdlar ulaşır.

Torpaq da canlandı can sürtən kimi,
Sən demə kül altda sönməyib közü.
Oğul barmağıyla qan sürtən kimi
Qurumuş bulağın açıldı gözü.

Tutub hər bəndimi, hər gədiyimi,
Dağlar çox gözlədi davamı mənim.
Nərgizlər uzaqdan alıb iyimi,
Ciyərinə çəkdi havamı mənim.

Koroğlu nərəni zilə dəmləyir,
Yağı dabanına tüpürüb qaçır.
Qartallar zirvədə bala yemləyir,
Qarğalar izini süpürüb qaçır.

Mənim torpağımda sən nə gəzirsən,
Bu yurdun, yuvanın yiyəsi mənəm.
Gülləni sıxmağa sinə gəzirsən,
Vətənin qayası, daşıdı sinəm.

Mənim daşdan nöhkəm sinəmə dəyib,
Üstünə qayıdar atdığın güllə.
Tez ol, yağı düşmən, "mən təslim" deyib,
Qaldır başın üstdə ağ bayraq yellə!

## Azərbaycan bayrağına

Çoxu kökə, soya çəkdi,
Qılıncını suya çəkdi.
Al qanından boya çəkdi
Azərbaycan bayrağına!

Qollarımı açın, açın,
Yollarımdan qaçın, qaçın.
Həsrət çəkir Şuşa, Laçın
Azərbaycan bayrağına!



İslam SADIQ

Bir gün gələr gərək ollam,
Basat ollam, Beyrək ollam.
Heç olmasa dirək ollam
Azərbaycan bayrağına!

## Bizimdi, bizim Qarabağ

Şəmkirdən gəlmişəm sənin hayına,
Ay canım Qarabağ, gözüm Qarabağ.
Bir sevgi dastanı yazıb köksünə
Cığırım Qarabağ, izim Qarabağ.

Oylağım olubdu dağların başı,
Çənlibel sanmışam gədiyi, qaşı.
Öpüb dodaqlarım qayanı, başı,
Bir yol büdrəməyib dizim Qarabağ.

Nə çiçək açılar, gül olar sənsiz,
Nə arım güllərdən bal alar sənsiz.
Qıfıllanar dilim, lal olar sənsiz,
Sənsən hər söhbətim, sözüm Qarabağ.

Tökülər üstümə çən səndən ayrı,
Olmaz ömrüm-günüm şən səndən ayrı.
Yüz il də yaşasam mən səndən ayrı,
Bircə günə dəyməz yüzüm Qarabağ.

Bir yanı Xankəndi, bir yanı Şuşa,
Adımı yazmışam burda min daşa.
Səndən qurban olmaz, təki sən yaşa,
Sənin qurbanınam özüm Qarabağ!

Bir gün qayıdarsan, gəl yağı düşmən,
Bir gün ağlayarsan, gül yağı düşmən.
Mənim son sözümü bil yağı düşmən,
Bizimdi, bizimdi, bizim Qarabağ!

## Gəlmişəm

*Bu gecə yuxuda*
*gördüm ki, Şuşadayam*

Qurtulub əlindən qəmin, kədərin
Sevinclə dolubdu sinəm, gəlmişəm.
Nə vaxtdı içimi göynədənləri
Şuşada danışam, dinəm, gəlmişəm.

Azıb gədiklərin çıxam qaşına,
Düşəm boranına, düşəm qışına.
Qayanın başına, daşın başına
Dolanam gəlmişəm, dönəm gəlmişəm.

Siz məni mindirin Qırın üstünə,
Qoy qanım tökülsün qarın üstünə.
Yuvama soxulmuş sarın üstünə
Nifrətəm gəlmişəm, kinəm gəlmişəm.

Yata-yata qoyub əri-ərəni,
Aşıb neçə-neçə bəndi-bərəni,
Dolana-dolana dağı-dərəni
Dumanam gəlmişəm, çənəm gəlmişəm.

Bir gün çin olarmı bu yuxum görən,
Ay İslam, dan yeri Şuşaya girəm.
Namərd düşmənləri üzbəüz görəm,
Deyəm, yağı düşmən, mənəm, gəlmişəm.

## Qoymaram

Bir kəhərin yalmanına yataram,
Düşmənləri qatım-qatım qataram.
Bir ox olub gözlərinə bataram,
Gözlərimi yaş əlində qoymaram.

Şuşa dedim, göyüm-göyüm göynədim,
Laçın dedim, görün daha neynədim.
Dişdəm-dişdəm dodağımı çeynədim,
Dodağımı diş əlində qoymaram.

Güllərimin şirəsini yad çəkir,
Yadlar gəzən yolum-izim dad çəkir.
Sərdənimə quşlar təzə səd çəkir,
Sərdənimi quş əlində qoymaram.

## Son davası Xocalının

Nə qədər ki, qurtarmayıb
Qan davası Xocalının.
Duyulacaq sözümüzdən
Qan havası Xocalının.

Deyin görüm niyə susub?
Baxıb yerə, göyə, susub.
Biz susmuşuq deyə susub
Xan havası Xocalının.

Ocaq sönməz köz ölüncə,
Mən ölmərəm söz ölüncə.
Canımdadı düz ölüncə
Can davası Xocalının.

Qorqud qopuz alacaq, bil,
Son havanı çalacaq, bil.
Sabah, sabah olacaq, bil
Son davası Xocalının.

## Məni barıt elə

Ay göyün yiyəsi,
Məni bulud elə.
Yer yağış istəsə
Sıx suyumu çıxart.
Ay xəngəl ustası,
Məni qurud elə.
Əz suya qarışdır,
Əndər xəngəl üstə,
Sonra çəngəl istə.
Ay tüfəng yiyəsi,
Məni barıt elə.
Sonra da öyün ki,
Barıtım lap boldur.
Tez ol, tez ol məni
Gilizlərə doldur.
Bircə tətiyi çək,
Tuşlama heç məni.
Qaçıb yerə girsə,
Yerin deşiyindən,
Qaçıb göyə çıxsa,
Göyün beşiyindən
Tapacam düşməni.

## Çənlibelə

İfçin-ifçin nallar vurdum,
Burum-burum qollar burdum.
Uzun-uzun yollar yordum,
Gəlib çıxdım Çənlibelə!

Yağı qoşun çəkəmmədi,
Bir daşını sökəmmədi.
Bura quş da səkəmmədi,
Elə baxdım Çənlibelə!

Yerə sərib yapıncımı,
Daşdan qoyub balıncımı,
Bayraq kimi qılıncımı
Özüm taxdım Çənlibelə!

## Qalasından

Yolum düşdü bu dağların
Balasından, balasından.
Öpdüm, öpdüm, doymadım mən
Lalasından, lalasından.

Az-az gözə dəyir ceyran,
Vurma məni deyir ceyran.
Əskik olmaz cüyür-ceyran
Talasından, talasından.

Nəfəs gəlir Koroğlunun,
Həvəs gəlir Koroğlunun,
Bir səs gəlir Koroğlunun
Qalasından, qalasından.